***

İnsan üçün böyük dərslərin biri də tarixdir. Aç tarixin səhifələrini və əgər gördün ki, insanlar bir para işlərdə səhv eləyiblər, – dəxi sən həmin səhvi eləmə.



## Alber KAMYU:

Amal uğrunda ölmək – amala layiq olmağın tək yoludur.

***

Aydın yazanların oxucuları var, qaranlıq yazanların isə şərhçiləri.

***

Azadlıq – tarixin itməyən yeganə dəyəridir.

***

Bir insanın təkbaşına xoşbəxt olmağı utanılacaq haldır.

***

Bir ölkəni tanımaq istəyirsinizsə, o ölkədə insanların necə öldüyünə baxın.

***

Dünya aydınlıq olsaydı, sənət olmazdı.

***

Dünyamız bədbəxtliklərdən zəhərlənib və deyəsən, bu elə onun özünə də zövq verir.

***

Edam cəzasını ləğv etməyəcək bir inqilab naminə ölməyə dəyməz.

***

Eşq ağıllı-dəli demədən bütün insanlara yoluxan bir xəstəlikdir.

***

Əgər Tanrı olmasaydı, bir insan müqəddəs ola bilərdimi?!

***

Freydin ...əzablar içindəki bəşəriyyətə heç ürəyi yanmırdı.

***

Gecələr sonsuz deyil...

***

Gözləməyin məhşər gününü: o gəlib artıq və indi hər gələn gün məhşərdir.

***

Heç nə böyüklük qədər sadə deyil, çünki sadə olmaq bir az da böyük olmaqdır.

***

Həqiqət də işıq kimi kor eləyir gözləri.

***

İdrakın ilk işi – gerçəyi yalandan ayırd etməkdir.

***

İnsanı müdafiəyə qalxıram, çünki yıxıldığını gördüm.

***

İyrənc olur yazıçının yaşamadıqlarından yazmağı və ya danışmağı...

***

Qorxaqların əhatəsində ikən insan özün tənhalıqda hiss edər.

***

Nə Faust, nə də Don Kixot bir-birin yenməkçün yaradılmayıb və sənət də dünyaya pislik üçün icad edilməyib.

***

Ölüm qorxusunu dəf etmədikcə insana azadlıq yoxdur.

*Tərtib və tərcümə edən:*
**Cəlal Bəydili (Məmmədov)**